

Masallı şəhərində yeni istifadəyə verilmiş "Gənclər Mərkəzi"ndə "Masallı Azərbaycanın Folklor Paytaxtıdır" mövzusunda tədbir keçirilib. Tədbirdə "Folklor Paytaxtı"nın kuboku və loqosu rayonda layihə ilə bağlı yaradılmış təşkilat komitəsinin sədri Nəsir Muxtarlıya təqdim edilib.



Mədəniyyət • 18. 4. 2012 • www.medeniyyet.az

# Maddi mədəni irsin mühafizəsi və effektiv istifadəsinə həsr olunmuş seminar



**Aprelin 16-da Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin təşkilatçılığı ilə "Park İnn" hotelində "Maddi mədəni irs abidələrinin qorunması, effektiv istifadəsi və inkişafı yolları" mövzusunda seminar keçirildi. Tədbir 18 aprel - "Beynəlxalq abidələr və tarixi yerlər günü"nə həsr olunmuşdu.**

Seminarı giriş sözü ilə açan mərkəzin direktoru, fəlsəfə elmləri doktoru, professor Vilayət İsmayılov maddi-mədəni abidələrin qorunmasından, onların səmərəli istifadəsindən söz açdı. Qeyd olundu ki, hazırda Azərbaycanda 6 mindən artıq maddi-mədəni irs abidəsi qeydiyyata alınıb. Dövlət səviyyəsində abidələrin mühafizəsinə, təmir-bərpasına diqqət göstərilir. Ölkəmizdə mədəniyyət sahəsində əldə edilən nailiyyətlərdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyəti xüsusi vurğulandı.

Mədəniyyət və Turizm Nazirliyinin Elm və təhsil şöbəsinin Elmi-metodiki sektorunun müdiri Asif Usubəliyev çıxışında maddi mədəniyyət nümunələrinin qorunması, səmərəli istifadəsi üçün dövlət qurumlarının səylərinin birləşdirməsinin vacibliyini bildirdi. Onun sözlərinə görə, maddi mədəni irs abidələrinin qorunması, effektiv istifadəsi və inkişafı yolları kimi aktual məsələlərə alimlər də öz münasibətini bildirməlidir, elmi əsaslandırmalar aparılmalıdır: "Seminarda alimlərimiz də yaxından iştirak edir. Mədəniyyət və Turizm Nazirliyi mövzu və istiqamətdən asılı olmayaraq bütün təşəbbüs və təkliflərə açıq dövlət qurumudur. Çünki bəzən belə seminarlarda səslənən bir təşəbbüs sonradan böyük bir mədəni layihəyə çevrilə bilər".

Sektor müdiri Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin elmi qurumlarla sıx əməkdaşlığının vacibliyini vurğuladı.

Sonra Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi elmi-mədəni mərkəzinin arxeologiya üzrə baş elmi işçisi, tarix elmləri namizədi Qənirə Pirquliyeva "Abidələrdə maddi mədəniyyət nümunələrindən ibarət tematik ekspozisiyaların təşkili", Mədəniyyət və İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Minaxanım Əsədli "Azərbaycanın mədəniyyət abidələrinə qarşı erməni vandalizmi", universitetin pedaqoji elmlər üzrə fəlsəfə doktoru Yeganə Eyvazova "Tədris prosesində tarix və mədəniyyət abidələrinin mühafizəsi məsələlərinin öyrədilməsi" mövzusunda məruzə etdilər. Seminarda məruzələr ətrafında müzakirələr aparıldı.

**Ceyhun**

**Xəbər verdiyimiz kimi, Mədəniyyət və Turizm Nazirliyinin "Azərbaycanın xalq yaradıcılığı paytaxtları» proqramı (2010-2014) çərçivəsində Masallı şəhəri 2012-ci ildə "Azərbaycanın Folklor Paytaxtı" elan edilib. Bununla bağlı rayonda təşkilat komitəsi yaradılıb və tədbirlər planı hazırlanıb.**

## Masallıda "Folklor Paytaxtı" tədbirlərinə start verildi



Aprelin 14-də Masallı şəhərində yeni istifadəyə verilmiş "Gənclər Mərkəzi"ndə "Masallı Azərbaycanın Folklor Paytaxtıdır" mövzusunda tədbir keçirilib. Tədbirdə Milli Məclisin deputatları, Mədəniyyət və Turizm Nazirliyinin məsul işçiləri, foklorşünas alimlər, rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, incəsənət ustaları iştirak ediblər.

Mərasimdə çıxış edən Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Nəsir Muxtarlı, Milli Məclisin deputatları Elmira Axundova, Sabir Rüstəmxanlı, Nəriman Əliyev, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət siyasəti şöbəsinin müdiri Fikrət Babayev, Xalq artisti İlham Əsgərov, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun direktoru Muxtar İmanov bütün masallılıları bu əlamətdar hadisə münasibətilə təbrik ediblər.

Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev "Folklor Paytaxtı"nın kubokunu və loqosunu təşkilat komitəsinin sədri Nəsir Muxtarlıya təqdim edib.

Tədbirin sonunda rayonun "Halay" folklor kollektivi rəngarəng rəqs nömrələri ilə çıxış edib, ölkəmizin folkloruna və mədəniyyətinə həsr edilmiş film nümayiş olunub.

# "Yuğ" teatrında rəqs tamaşası

## Teatr növbəti layihəni başa çatdırdı



**Azərbaycan Dövlət Yuğ Teatrı müasir dünya mədəniyyəti ilə tanışlıq, bu sahədə qabaqcıl təcrübələrin mənimsənilməsi və həyata keçirilməsi məqsədilə mütəmadi olaraq müxtəlif layihələr - teatr məşğələləri, ustad dərsləri təşkil edir. Bu qəbildən daha bir tədbir aprelin 9-dan 13-dək teatrın nəzdində fəaliyyət göstərən "Yaradıcı Təşəbbüslər Mərkəzi" və Azərbaycandakı Fransa İnstitutunun birgə təşkil etdiyi modern rəqs məşğələləri idi.**

Teatrın binasında keçirilən məşğələlərdə fransız rəqqasları Sara Baltzinger və Aleksandro Lipo modern rəqs teatrı, müasir rəqsin texniki cəhətləri, xoreoqrafik repertuar üzərində iş, kontakt, improvizasiya və yaradıcılıq kimi istiqamətlərdə öz təcrübələrini iştirakçılarla paylaşdılar.

Sara Baltzinger Fransada modern rəqs sahəsində kifayət qədər uğur qazanmış rəqqasədir. «Compagnie Mirage»nin xoreoqrafıdır. Bu truppanın tərkibində «Əl oyunları», «Səhv», «Sakit» kimi məşhur tamaşalarda rəqs edib. Hazırda Barselona şəhərindəki «Compagnie Laura Vilar» truppasında çıxış edir. Müxtəlif məktəblərdə və konservatoriyalarda, Lüksemburq Xoreoqrafiya Yaradıcılıq Mərkəzində dərs deyir. Aleksandro Lipo da Avropanın bir sıra rəqs truppalarında («Compagnie Mirage» və «Compagnie Totum») çalışır. Bernard-Marie Kotles Teatrında musiqili komediya, modern rəqs, caz və ifaçılıq sənətindən dərs deyir.

Rəqqaslar məşğələlərin sonunda, aprelin 13-də tamaşaçılarına «Compagnie Mirage»yin son işlərindən olan «Entre toi» («Sizin aranızda») adlı rəqs tamaşasını nümayiş etdirdilər. Səhnə əsərinin süjet xətti oğru ilə girov arasındakı münasibətlər üzərində qurulub. Tamaşaçılar rəqs dili ilə səhnə əsərində baş verən hadisələri izlədilər. S.Baltzingerin quruluş verdiyi tamaşa izləyiciləri düşündürməklə yanaşı, həm də gözəl rəqs hərəkətlərindən zövq almaq imkanı verdi.

**Gülər**

# Şəki Dram Teatrı Konyada beynəlxalq festivalda



Aprelin 14-də Türkiyənin Konya şəhərində «Min nəfəs, bir səs» adlı türkdilli dövlətlərin V Beynəlxalq teatr festivalı başlayıb. Aprelin 24-dək davam edəcək sənət bayramında Azərbaycan da təmsil olunur. Festivalda ümumilikdə 10 ölkədən 350-dən çox teatr təmsilçiləri iştirak edir.

Tədbirin rəsmi açılışından öncə festival iştirakçılarının Konya valisi Aydın Nezih Doğanla görüşü oldu. Vali bu il sayca beşinci dəfə gerçəkləşən festivalda türkdilli ölkələrin teatrlarının bir araya gələrək öz sənət nümunələrini nümayiş etdirməsi üçün gözəl imkan yaradıldığını söylədi. Türkdilli ölkələrin teatr təmsilçiləri valiyə ürək sözlərini bildirməklə yanaşı, hədiyyələrini də təqdim etdilər.

S.Rəhman adına Şəki Dövlət Dram Teatrının direktoru Hikmət Nəbili və baş rejissoru Mirbala Səlimli də Konya valisi ilə görüşdə öz ürək sözlərini söylədilər. Teatrın direktoru mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun, eləcə də Azərbaycan teatrsevərlərinin adından qardaş ölkənin rəsmisinə salam və ehtiramlarını bildirdi. H.Nəbili türkdilli xalqlar arasında dostluq və mədəniyyət əlaqələrinin möhkəmlənməsində «Min nəfəs, bir səs» beynəlxalq teatr festivalının əhəmiyyətini vurğuladı. Daha sonra vali Aydın N.Doğana Şəki Teatrı adından XVIII əsrdə inşa edilmiş qədim Karvansaray kompleksinin daş üzərindəki rəsmi əks olunmuş tablo hədiyyə edildi.

Konya Dövlət Teatrında gerçəkləşən festivalın ilk günü sənətsevərlərə Makedoniya Milli Qurum Türk Teatrının yaradıcı heyətinin hazırladığı «Şəhrazad və Şəhriyarın hekayəsi» təqdim olundu.

Şəki Dövlət Dram Teatrı aprelin 20-də fransız dramaturqu J.B.Molyerin «Aldadılmış ər» tamaşasını nümayiş etdirəcək.

**Sevda Babayeva,**

***Konyadan xüsusi olaraq «Mədəniyyət» qəzeti üçün***